http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 21 (1639) 16 dekabr 2016 - cı il Qiymәti 50 qәpik

# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 13 il keçir.**

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.



## BU SAYIMIZDA




Ümummilli lider Heydər Əliyevin xatirəsi yad edilib 2

GÖRKƏMLİ ALİM AQİL ƏLİYEVİN 90 İLLİK YUBİLEYİ QEYD OLUNUB 3



Hüseyn Qabulov: "Klinikamızın unikal imkanları var və biz bu imkanlardan geniş istifadə etməliyik" 5

İllinoys Universitetinin nümayəndə heyəti ATU-nun qonağı olub 5





TEC-in fəalları mükafatlandırıldı 4

ATU–nun diplomlarının tanınması ilə bağlı görüş keçirilib 2

Əczaçılıq fakültəsində 3 yeni müasir laboratoriya yaradılır 6

Baş epidemioloq: «Son illər ölkəmiz üçün xarakterik olmayan heç bir yoluxucu xəstəlik qeydə alınmayıb» 7

Xarici tələbələr də ulu öndərin əziz xatirəsini yad etdilər 4

Ftiziatriya kafedrası qrant müsabiqəsinin qalibi oldu 4

Tanınmış idman xadimi 6



# Ümummilli lider Heydər Əliyevin xatirəsi yad edilib

**Dekabrın 9-da Azərbaycan Tibb Universitetində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş anım tədbiri keçirilib. Toplantıda universitetin professor-müəllim heyəti, millət vəkilləri, yerli icra nümayəndələri və ictimai xadimlər iştirak ediblər. ATU-nun rektoru, professor Gəray Gəraybəyli tədbiri açaraq bildirib ki, ölkəmizin hər yerində olduğu kimi Azərbaycan Tibb Universitetinin kollektivi də ulu öndər Heydər Əliyevin anım gününü qeyd edir.**

Mərasimin əvvəlində ümummilli lider, dahi siyasətçi Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra millət vəkili, YAP-ın Nəsimi rayon təşkilatının sədri Məlahət Həsənova çıxış edərək ümummilli liderin unikal bir siyasi məktəb, mükəmməl dövlətçilik və idarəçilik sisteminin banisi olduğunu vurğulayıb. Onun sözlərinə görə, Heydər Əliyev həm də Azərbaycanda ideoloji-siyasi irsin müəllifi sayılır: "Azərbaycanın ən yeni tarixində Heydər Əliyevin xidmətlərini sadalamaqla qurtaran deyil. Məhz bu müdrik siyasətçi sayəsində Azərbaycanın dayanıqlı inkişafının əsası qoyulub."



Natiq ölkənin ictimai-siyasi durumunun ağır olduğu bir ərəfədə xalqımızın H.Əliyevi hakimiyyətə gətirməsini müdrik addım kimi dəyərləndirib. Bildirib ki, həmin vaxt xalqımız müdriklik edib ulu öndəri hakimiyyətə gətirməsəydi, bu gün Azərbaycan xalqının müstəqil dövlətdə yaşayacağı sual altında qalacaqdı. Doğrudur, xalqımız müxtəlif dönəmlərdə dövlətlər qurub, amma onun uzaqgörən, bacarıqlı və cəsarətli liderləri olmadığı üçün süquta uğrayıb. Məhz ulu öndərin sayəsində dövlətimiz günü-gündən güclənir və bu gün dünyada ehtiramla qəbul edilir.

M.Həsənova həmçinin vurğulayıb ki, məhz Heydər Əliyev Azərbaycanı hakimiyyətdə olduğu dövrdə siyasi böhrandan çıxarmağı bacarıb. Millət vəkili nitqinin sonunda gənclərə ümumilli liderin misilsiz xidmətləri barədə daha çox məlumat verilmsinin vacibliyini tövsiyə edib.

ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva qeyd edib ki, hər il Azərbaycanla yanaşı bir çox ölkələrdə müasir Azərbaycanın yaradıcısı olan Heydər Əliyevin anım mərasimləri təşkil olunur: "Tarixdən də bəllidir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Bu şəxsiyyətlər arasında müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin özünəməxsus yeri vardır. Ulu öndərin Azərbaycanın ərazi bütövlüyü uğrunda gördüyü işləri artıq bütün dünya etiraf edir".



Natiq həmçinin ulu öndərin Azərbaycana rəhbərlik etdiyi 1969-cu ildən etibarən elmin, təhsilin, mədəniyyətin, sənayenin, iqtisadiyyatın sürətlə inkişaf etməsi məqamına da diqqəti çəkib. Ölkənin ayrı-ayrı sahələrinin idarə olunması üçün kadrların yetişdirilməsi məqsədi ilə gənclərin köhnə SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almasına şərait yaradılmasına və digər məqamlara da toxunub.

ATU-nun I daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti Nağdəli Zamanov ulu öndərin nitq mədəniyyəti haqqında çıxış edib. "Universitetin 70 illik yubileyində H.Əliyev qeyd etdi ki, Azərbaycandakı elm və təhsil sahələri içərisində ən əhəmiyyətli sahə tibb təhsilinin təşkilidir. Mən bununla demək istəmirəm ki, digər sahələr adidir, hər bir sahə vacibdir. Lakin özünü insanların sağlamlığına həsr edən həkimlərimiz ən qiymətli insanlardır".

"Ulu öndər bizi ən qiymətli insan, işlədiyimiz sahəni isə ən önəmli sahə adlandırıb"- deyən natiq ulu öndərin ayrı-ayrı dövrlərdə səsləndirdiyi fikirlərdən sitatlar gətirib və nitqində səslənən fikirlərin məna gücü, fəlsəfəsi, işlədilən məqama görə auditoriyaya təsir gücü və digər məqamlarala bağlı tədbir iştirakçılarına ətraflı izahat verib.

ATU-nun II müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Xatın Məmmədova Heydər Əliyevin ölkənin gələcəyi olan gənclərə göstərdiyi diqqət və qayğı ilə bağlı fikirlərini səsləndirib. Aparıcı sahələrdə gənc kadrlara etibar edildiyini və onların qarşısına yaşıl işıq yandırıldığını xüsusilə vurğulayıb.

Qabil ABDULLAYEV

# ATU-nun diplomlarının tanınması ilə bağlı görüş keçirilib

"Boulevard Hotel Baku"da İraqın ölkəmizdəki səfirliyi tərəfindən Azərbaycan Tibb Universitetində (ATU) və digər ali təhsil müəssisələrində təhsil alan iraqlı tələbələrin yerli ali məktəblərin rəhbərləri ilə görüşü keçirilib.



Görüş İraq Təhsil Nazirliyinin Azərbaycanın bəzi universitetlərinin diplomlarını tanıması ilə bağlı olub. İraqın ölkəmizdəki səfiri Fazil Avad əl-Şuveyli tərəfindən təşkil olunan tədbirdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov, xarici tələbələrlə iş üzrə dekanı, dosent İsmayıl Əfəndiyev, universitetimizin başqa rəsmləri də iştirak edib.



Səfir Fazil Avad əl-Şuveyli qeyd edib ki, son vaxtlar İraq və Azərbaycan arasında ikitərəfli əlaqələr möhkəmlənib və genişləndirilib: "Bunun da nəticəsində Azərbaycan Tibb Universitetinin və bir neçə başqa ali təhsil müəssələrinin diplomlarının İraq Respublikası tərəfindən rəsmi tanınmasına nail ola bilmişik". N.Zeynalov və İ.Əfəndiyev iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın vacib olmasını vurğulayıblar. Qeyd olunub ki, hazırda ATU-da təhsil alan 300-ə yaxın iraqlı tələbələrin tədrisi müvafiq tibb sahəsində olan beynəlxalq standartalara uyğun aparılır. Rəsmi hissədən sonra qonaqlar üçün təşkil edilən ziyafət qarşılıqlı dostluq şəraitində davam edib.

**ATU-nun mətbuat xidməti**

# GÖRKƏMLİ ALİM AQİL ƏLİYEVİN 90 İLLİK YUBİLEYİ QEYD OLUNUB

**Dekabrın 7- də ATU-nun Tədris Terapevtik Klinikasında görkəmli alim, AMEA- nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Aqil Əlirza oğlu Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr edilmiş geniş toplantı keçirilmişdir.**

Tədbiri giriş nitqiylə açan Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli xatirəsi ürəklərdə əbədi yaşayan böyük alimin keçdiyi şərəfli həyat yolundan və fədakar əmək fəaliyyətindən danışdı. Görkəmli alimin bu ali təhsil ocağı ilə bağlı fəaliyyətindən söhbət açan rektor bildirdi ki, universitetin formalaşmasında bu cür alimlərin, o cümlədən Aqil Əliyevin əməyi danılmazdır: "Elə insanlar var ki, öz dövrünü yaşayaraq nə insanların qəlbində, nə tarixdə heç bir iz qoya bilmirlər. Eyni zamanda da elə insanlar var ki, onların əməlləri, addımları, fərdi xüsusiyyətləri, əvəzsiz xidmətləri nəticəsində həm tarixdə, həm də insanların qəlbində çox dərin iz qoyub. Belə tarixi ziyalılarımızın sırasında akademik Aqil Əlirza oğlu Əliyevin öz yeri var".

Aqil Əliyevin həyatı haqqında qısa məlumat verən rektor xatırlatdı ki, o, gənc yaşlarından öz taleyini iqtisad elminin inkişafına həsr edərək 1953-cü ildən etibarən həyatının sonuna qədər Tibb Universitetində çalışıb: "Aqil Əliyev ATU-da müəllim, dosent, professor kimi vəzifələrdə işləmiş və peşəkar ali pedaqoq titulunu qazanmışdır. O, həyatının sonuna qədər ATU-nun iqtisadi nəzəriyyə və hüququn əsasları kafedrasının müdiri vəzifəsini sevərək icra edib".



Rektor vurğuladı ki, professor Aqil Əliyevin elmi araşdırmaları həm sovet, həm də dünya iqtisadiyyatının inkişafına böyk töhfə olub. Onun əsərləri ölkəmizdə bazar münasibətlərinin formalaşmasına ciddi təsir edib. Akademik Aqil Əliyevin Azərbaycan elmi qarşısındakı xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib.

Sonra Aqil Əliyevin həyat və fəaliyyətindən bəhs edən video çarx nümayiş olunub.

ATU-nun ictimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev tədbir iştirakçılarına akademik Aqil Əliyevin elmi, pedaqoji və ictimai fəaliyyəti haqqında ətraflı məlumat verdi.

Məruzəçi bildirdi ki, Aqil Əlirza oğlu Əliyev 1926-cı il dekabrın 10-da Naxçıvan şəhərində anadan olmuşdur. O, Naxçıvan şəhərində orta məktəbi bitirdikdən sonra 1946-cı ildə Bakı Dövlət Universitetinə daxil olmuş və 1951-ci ildə oranı bitirmişdir. 1953-cü ilə qədər Azərbaycan EA-nın tarix institutunda elmi işçi vəzifəsində çalışmışdır. İqtisad elminə böyük marağı olduğundan 1953-cü ilin may ayında Azərbaycan Tibb İnstitutunun siyasi – iqtisad kafedrasında işə başlamış və ömrünün sonuna qədər burada çalışmışdır. A.Əliyev 1970-cı ildə iqtisad elmləri namizədi, 1983-cü ildə iqtisad elmləri doktoru alimlik dərəcəsinə, 1973-cü ildə dosent, 1979-cı ildə professor elmi adlarına layiq görülmüşdür. 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Sözünə davam edən natiq dedi ki, A.Əliyevin elmi-pedaqoji fəaliyyəti ayrı-ayrı dövrlərdə dövlətimiz tərəfindən layiqincə dəyərləndirilmişdir. O, əməkdar elm xadimi fəxri adına, "Şöhrət" və "Qırmızı Əmək Bayrağı" ordenlərinə və s. medal, fəxri fərman və təltiflərə layiq görülmüşdür.

Professor A.Əliyevin apardığı tədqiqat işləri çoxsahəli olsa da, onun elmi yaradıcılığında əsas yeri sosial iqtisadi problemlər, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ərzaq və istehlak problemlərinin həlli, səhiyyənin iqtisadiyyatı, əhalinin sağlamlığının sosial-iqtisadi və demoqrafik inkişaf aspektlərinin tədqiqi və s. tutur. Bu problemlər onun 190-a yaxın elmi-tədqiqat əsərində, 13 sanballı monoqrafiyada, 6 dərslik və dərs vəsaitində, 3 tədris-metodik göstəricidə öz əksini tapmışdır.

Azərbaycanda ilk dəfə olaraq "Şəxsi istehlakın iqtisadiyyatı və problemləri", "Aqrar iqtisadiyyatın aktual problemləri", "Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi problemləri", "Səhiyyədə iqtisadiyyat, planlaşdırma, idarəetmə, maliyyələşdirmə və əməyin elmi təşkili", "ASK-nın aqrar bölməsində elmi – texniki tərəqqini sürətləndirmə problemləri" və sair kimi monoqrafiyaların müəllifidir.

Yalnız bazar iqtisadiyyatına keçid şəraitində A.Əliyevin 80 elmi əsəri çap olunmuşdur. Onlardan "Azərbaycanın sosial – iqtisadi inkişafında islahatların rolu", "İpək Yolunun bərpası bəşəriyyətin tərəqqi yoludur", "Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri", "Səhiyyənin iqtisadiyyatı", "Azərbaycanda əhalinin səviyyəsinin yüksəldilməsinin aktual problemləri", "Naxçıvan Muxtar Respublikası: nailiyyətlər, problemlər" (I və II cild), "Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti", "Bələdiyyələr. Metodik kömək", "Dünya iqtisadiyyatı: müasir dövrün problemləri", "Müstəqil Azərbaycan iqtisadiyyatının aktual problemləri" və sair sanballı kitabları yazmışdır.

Çıxışında Ulu öndər Heydər Əliyevin "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur" sözlərindən sitat gətirən Qoşqar Əliyev Aqil müəllimin bütün zamanlarda belə alimlərin sırasında olduğunu dedi.

Sonra Milli Məclisin iqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadə çıxış edərək Aqil Əliyevin şərəfli ömür yolu ilə bağlı xatirələrini tədbir iştirakçılarına çatdırdı.

O, söylədi ki, tarixi faktlar da Azərbaycanda iqtisad elminin hərtərəfli inkişafında görkəmli iqtisadçıların rolunun olduğunu göstərir. Bu tarixin layiqli nümayəndələrindən biri də Aqil Əliyevdir. Onun Azərbaycan iqtisad elmində rolu ilk növbədə onunla əlaqədardır ki, ölkəmizdə iqtisad elmində olan problemlərin həllində keyfiyyətli işlər ortaya qoyub.

"Aqil Əliyevin tədqiqatlarında iqtisadi məsələlərin dərindən araşdırılması qabarıq şəkildə özünü göstərir. Burada əsas mahiyyət iqtisadi inkişafla həyat səviyyəsi arasında əlaqənin nədən ibarət olduğunun önə çəkilməsidir. Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması onun prioritet kimi qoyduğu məsələlər sırasına daxil idi.

Aqil Əliyev "səhiyyənin iqtisadiyyatı" deməklə hökuməti, iqtisadçıları, alimləri, cəmiyyətdə nüfuz sahibi olan insanları bu istiqamətə cəlb edərək bunun iqtisadiyyatın bir qolu olduğunu sübut edə bildi."




Ziyad Səmədzadə çıxışında bu kimi məsələlərdə geridə qaldığımız istiqamətlərin həllinə böyük miqdarda vəsait tələb edildiyini də bildirdi: "Ulu öndər Heydər Əliyev 70-ci illərdə ölkəmizə rəhbərlik edəndə Azərbaycanda səhiyyənin inkişaf etdirilməsi baxımından xəstəxanaların açılmasına şərait yaratdı. Bu gün də istər Azərbaycanda, istər digər yerlərdə səhiyyəyə qalıq prinsipi ilə baxan insanlar, məmurlar var. Dünyada bir nömrəli problem isə səhiyyədə olan axsamaların aradan qaldırılması olmalıdı. Bütün bunlar səhiyyəyə ayrılan vəsaitin hesabına daha təkmil ola bilər".

Aqil Əliyevlə bağlı xatirələrini bölüşən I uşaq xəstəlikləri kafedrasının professoru Surxay Musayev bu böyük alimin onu tanıyanların yaddaşında sadə və səmimi bir vətəndaş-alim kimi qaldığını diqqətə çatdırdı. Böyük alim, gözəl insan Aqil Əliyev barəsində söz deməyin çox böyük məsuliyyət olduğunu və onun hərtərəfli bir şəxsiyyət kimi tarixdə silinməz izlər qoyduğunu söylədi: "Aqil müəllim hər zaman arxasız, imkansız insanlara arxa-dayaq olub. O, işinin gərgin olmasına baxmayaraq daim tələbələrinə çox böyük diqqət ayırar, onlara təmənnasız dəstək verərdi.

Mənim o zaman universitetdə məsul vəzifəyə irəli çəkilməyimdə də Aqil Əliyev sözünün çox böyük çəkisi olmuşdur. Aqil Əliyev Mərkəzi Komitənin I katibinin qardaşı olsa da, bunu heç zaman hiss etdirməzdi. Amma buna baxmayaraq o, tələbələri ilə daim maraqlanır və onların problemlərinə yaxından köməklik göstərirdi. Onu bu xeyirxah işləri görməyə heç kim məcbur etmirdi. Çünki bu böyük insan daim gənclərin yanında idi, onları unutmurdu. Yenə deyirəm, bu onun heç kimə xas olmayan xarakterindən irəli gəlirdi. O, sözün əsil mənasında böyük insan, görkəmli şəxsiyyət olaraq hər birimizin xatirəsində əbədi yaşayacaq".

Aqil Əliyev haqqında həzin, kövrək xatirələrini dilə gətirən S.Musayev bu böyük alimlə olan yaxın dostluq əlaqələrindən söhbət açdı, onun yüksək insani keyfiyyətlərindən, eləcə də müəllim- tələbə münasibətlərindən ürəkdolusu bəhs etdi.

Azərbaycanda Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin sədri İlham İsmayılov çıxışında Aqil Əliyevin həyatda özünəməxsus izlər qoyduğunu bildirdi, onun sadə və təvazökar bir şəxsiyyət olaraq hər kəsin qəlbində abidə olaraq qaldığını vurğuladı.



Aqil Əliyevin ailə üzvləri adından çıxış edən Zərifə Əliyeva belə mötəbər tədbirin təşkilinə görə universitetin rəhbəri professor Gəray Gəraybəyliyə minnətdarlığını bildirib.

O, diqqətə çatdırıb ki, Əliyevlər yeddi övlad olaraq daima ölkəsinin, xalqının yaxşı yaşaması və rifahı naminə böyük işlər görüblər. Bu gün də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və onun xanımının ölkəmizin inkişaf etdirilməsi, xalqın həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı gördükləri işlər göz önündədir.

Tədbiri yekunlaşdıran professor G.Gəraybəyli belə yubiley tədbirlərinin keçirilməsini ölkə rəhbərliyinin elm adamlarına göstərdiyi diqqət və qayğının təzahürü adlandırdı. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin də davam etdirdiyi bu xeyirxah ənənəni keçmişimizə böyük ehtiramı kimi dəyərləndirdi.

**Mənsur ƏLƏKBƏRLİ**

# TEC-in fəalları mükafatlandırıldı

**Dekabrın 2-də Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli bir müddət əvvəl ATU-da keçirilmiş Tələbələrin və Gənc Həkimlərin III Beynəlxalq Tibb Konqresinin aktiv iştirakçılarını qəbul edib.**





Öz adından, universitet rəhbərliyi adından TEC-in fəallarına minnətdarlığını bildirən rektor işlərinin çox olmasına baxmayaraq, tələbələrlə tez-tez görüşməyə çalışdığını deyib. Müasir cəmiyyətdə bəzən insani keyfiyyətlərin arxa plana çəkildiyini, bir çox məsələlərin maddiyyat üzərindən qurulduğunu, bunun qlobal bir tendensiya xarakteri aldığını təəssüflə qeyd edən G. Gəraybəyli tələbələrə daha çox özlərinin daxili enerjisinə güvənməyi, hər bir məsələdə təşəbbüskarlıq etməyi məsləhət görüb: “Sizi burada birləşdirən elmə yaxınlığınız, intusiyanızdır. Çünki universitetdə 6 mindən artıq tələbə təhsil alır. Hər kəs də bu işdə iştirak etmir və etməməlidir. Əslində mümkün də deyil ki, 6 min tələbənin hamısı elmə yaxın olsun, elmi konfransların təşkilati işlərində aktiv rol oynasın. Universitetin sizin kimi tələbələrin köməyinə böyük ehtiyacı var. Mən həmişə demişəm və yenə də deyirəm ki, bizim fəaliyyətimiz bilavasitə tələbələrlə bağlıdır. Əsas məqsədimiz tələbələrin maraqlarını qorumaqdır. Artıq 2 nəfər tələbə rektoryanı şuranın tərkibinə daxil edilib. Gələcəkdə bir neçə tələbəni Böyük Elmi Şuranın üzvlüyünə də qəbul edəcəm. Çünki universitetin məhsulu tələbədir. Siz öz sözünüzü deməli, öz haqqınızı tələb etməlisiz. Səsiniz idarəçilikdən gəlməli, universitetdə həlli vacib olan məsələlərin müzakirəsi zamanı xüsusi fəallığınızla seçilməlisiz”.

Tələbə Elmi Cəmiyyətinin fəaliyyətində professor Amaliya xanım Əyyubovanın xidmətlərini yüksək qiymətləndirən rektor özünün tələbəlik dövründə və hal-hazırda elmi-tədqiqat işləri aparmaları üçün tələbələrə yaradılan şəraiti müqayisə edərək paralellər aparıb: “Mən hələ tələbə olarkən Amaliya xanımın Tələbə Elmi Cəmiyyətinə ürəkdən can yandırmasının şahidi olmuşam. Bizləri necə əzizləyirdi, necə hazırlayırdı. İndi siz istədiyiniz ölkəyə gedə bilərsiz. O zaman biz yalnız SSRİ məkanında olan tədbirlərə gedə bilirdik. Ukraynaya gedəndə bizim üçün böyük bir bayram idi. Sevinirdik ki, Azərbaycandan harasa getdik və hansısa tələbə konfranslarında iştirak edədik. Hələ o illərdə Amaliya xanım böyük alim, həkim və kafedra müdiri ola-ola həm də Tələbə Elmi Cəmiyyətinin ideoloji, metodoloji rəhbəri idi”.



Bu görüşdən əvvəl Amerikanın Çikaqo şəhərinin İllinoys Universitetinin böyük bir nümayəndə heyətini qəbul etdiyini, ikitərəfli əməkdaşlıq haqqında müzakirələr aparıldığını və artıq ilk sazişin hazırlanması ilə bağlı tapşırıqlar verdiklərini söyləyən rektor tələbələrin elmi işə cəlb edilməsinin əhəmiyyətini vurğulayıb: “Universitetdə çalışan əməkdaşların fəaliyyəti əsasən 3 istiqamətdən ibarətdir: tədris, elm və praktiki fəaliyyət. Elm tədrisi irəli aparan bir amildir. Elm inkişaf etməsə, tədris də, texnologiya da inkişaf etməyəcək. İllinoys Universitetinin rektoru deyir ki, bizdə mühazirələrin əksəriyyəti kompüter vasitəsilə aparılır. Tələbə professorun mühazirəsini zalda yox, kompüter vasitəsilə dinləyir. Ancaq sinifdaxili təhsil hansısa konkret bir xəstəlik üzərində qurulur. Həmin universitetin elmi araşdırmalara, tədqiqatlara ayrılan büdcəsi 300 milyon dollardır ki, hələlik bunu bizdə təsəvvür etməyin özü çətindir. Gələn il həmin universitetlə müqavilə imzalamağı planlaşdırırıq. Düşünürük ki, bundan sonra tələbələrimizin orada qısamüddətli də olsa elmi fəaliyyətinə imkan yaradılacaq”.

Əvvəllər elmi-tədqiqat işində iştirak edərək fərqlənən tələbələrin hansısa kafedrada saxlanıldığını bildirən rektor indi bu mexanizmlərin olmadığını deyib. Onu da əlavə edib ki, elmdə daha aktiv iştirak edən insanlar müəyyən bir güzəştə malik olmalıdır: “Gələcəkdə sizləri universitetimizdə, klinikalarımızda da görəcəyik. Tibb elmini, tibb təhsilini gələcəyə tələbəlik illərindən elmə bağlı olan sizin kimi insanlar aparacaqlar. Universitetimizdə keçirilmiş Tələbələrin və Gənc Həkimlərin III Beynəlxalq Tibb Konqresi də sizin və elmi rəhbərlərinizin gərgin əməyi nəticəsində müvəffəqiyyətlə baş tutub. Xarici qonaqlardan təşəkkür məktubları alırıq. Çox gözəl bir ənənədir. Gələcəkdə ola bilsin ki, tədbirin formatını biz bir qədər də genişləndirək. Hamınızı bir daha təbrik edirəm”.

ATU-nun Tələbə Elmi Cəmiyyətinin sədri Müşfiq Həsənov göstərilən diqqətə və qiymətləndirməyə görə rektora təşəkkürünü bildirib. O, konqresdə xarici ölkələri təmsil edən professorların rəsmi minnətdarlıq məktubunu və konqresin gedişi barədə Azərbaycan Dövlət Televiziyasının hazırladığı verilişin diskini də rektora təqdim edib.

Görüşün sonunda konqresin işindəki aktiv fəaliyyətinə görə 32 tələbə rektor tərəfindən sertifikata layiq görülüb.

TEC-in fəaliyyətində fəallıqlarına görə fərqlənən tələbələrə diplomlar təqdim olunub.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# Xarici tələbələr də ulu öndərin əziz xatirəsini yad etdilər

**Azərbaycan Tibb Universitetinin təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatının on üçüncü ildönümü ilə əlaqədar Universitetdə təhsil alan xarici tələbələr üçün Heydər Əliyev Mərkəzinə ziyarət təşkil edilib.**



Təşkil edilmiş ziyarətdə universitetin xarici tələbələrlə iş üzrə dekanlığının rəhbərliyi də iştirak edib.

Ziyarət çərçivəsində iştirakçılara Mərkəz haqqında ətraflı məlumat verilib, onlar Heydər Əliyev Mərkəzini və burada yerləşən Heydər Əliyev Muzeyini ziyarət edib, həmçinin ulu öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlarla, siyasi irsini təbliğ edən əyani vəsaitlərlə tanış olublar.



Ziyarətin sonunda xatirə şəkili çəkdirilib.

# Ftiziatriya kafedrası qrant müsabiqəsinin qalibi oldu

**Azərbaycan Tibb Universitetinin Ftiziatriya kafedrasının Elmi-Tədqiqat Ağ ciyər Xəstəlikləri Institutu ilə birgə planlaşdırdığı “Azərbaycan Respublikasında ağ ciyər vərəmi olan xəstələrdə vərəm mikobakteriyası ştamlarının molekulyar - genetik mutasiyalarının tədqiqi” layihəsi Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun kompleks elmi-tədqiqat proqramları üzrə qrant müsabiqəsinin (EİF-KETPL-2015-1(25)) qalib layihələrinin siyahısına daxil edilmişdir. Belə ki, ATU-nun Ftiziatriya kafedrasının müdiri, dosent Rafiq Bayramovun da iştirak etdiyi layihə çərçivəsində aparılacaq tədqiqatın məqsədi – Azərbaycan Respublikasının müxtəlif regionlarında ağ ciyər vərəmi olan xəstələrdə rast gəlinən vərəm mikobakteriya ştamlarının molekulyar genetik spesifikliyinin tədqiqidir.**



Layihə çərçivəsində aşağıdakı istiqamətlər üzrə fəaliyyətlər nəzərdə tutulub:

- Azərbaycan ərazisində rast gəlinən vərəm ştamlarının molekulyar – genetik tədqiqi;
- Ölkədə rast gəlinən vərəm ştamlarının izolyantları muzeyinin yaradılması;
- Vərəm mikobakteriyalarının genetik mutasiya xüsusiyyətləri və yayılma intensivliyi, həmçinin dərmanlara davamlılıq spektri göstərilməklə ilk epidemioloji xəritənin tərtibi;
- Vərəm infeksiyasının dərmanlara davamlı formalarının erkən aşkarlanması və vərəmin diaqnostik alqoritminin təkmilləşdirilməsi üçün tövsiyələrin hazırlanması;
- Ölkə üzrə vərəm infeksiyasına epidemioloji nəzarət sisteminin təkmilləşdirilməsi üçün tövsiyələrin hazırlanması.

Azərbaycan Respublikasının müxtəlif regionlarında ağ ciyər vərəmi olan xəstələrdə vərəm mikobakteriya ştamlarının molekulyar genetik spesifikliyinin tədqiqi vasitəsi ilə erkən diaqnostika və epidemioloji nəzarət tədbirlərinin təkmilləşdirilməsi layihənin əsas elmi tədqiqat ideyasıdır.

# İllinoys Universitetinin nümayəndə heyəti ATU-nun qonağı olub

**Azərbaycan Tibb Universiteti beynəlxalq əlaqələrini genişləndirir. Ali məktəb dünyanın müxtəlif nöqtələrində yerləşən universitetlərlə əməkdaşlıq edir, həmçinin yeni tərəfdaşlarla münasibətlər qurur. Artıq daha nüfuzlu bir elmi müəssisə ilə ATU arasında əlaqələrin qurulmasına başlanılıb.**



Bu günlərdə Çikaqonun İllinoys Universitetinin təmsilçiləri ATU-nun qonağı olublar.

İllinoys Universitetinin sağlamlıq üzrə inkişaf prorektoru Robert Barişin rəhbərlik etdiyi nümayəndə heyəti universitetlə tanış olub, rəhbərliklə görüşüb.

Görüş zamanı ATU-nun rektoru, professor Gəray Gəraybəyli qonaqlara Azərbaycanın yeganə tibbi ali təhsil müəssisəsinin tarixi və fəaliyyəti haqqında ətraflı məlumat verib. Qeyd edib ki, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ATU-da inkişaf yoluna qədəm qoyub. Hazırda Tibb Universiteti nəinki ölkəmizdə, ümumiyyətlə regionda tibb təhsili verən ən güclü ali təhsil müəssisələrindən biridir. Rektor vurğulayıb ki, Tibb Universiteti yalnız ali məktəb deyil, həm də güclü elm ocağı və müalicə mərkəzi kimi fəaliyyət göstərir. Belə ki, universitet nəzdində müxtəlif istiqamətlərdə fəaliyyət göstərən dörd müasir klinika var. Rektor G.Gəraybəyli ATU-da tələbələrlə yanaşı, rezidentlər üçün yüksək tədris şəraiti yaradıldığını da bildirib.

İllinoys Universitetinin prorektoru Robert Bariş Azərbaycanda olmaqdan məmnunluq duyduğunu, qonaqpərvərliyə görə ATU rəhbərliyinə təşəkkürünü bildirib. Prorektor Bariş İllinoys Universitetinin Çikaqonun ən böyük ali məktəbi olduğunu qeyd edib. Qonaq universitetdə hər il 28 min nəfərin təhsil aldığını bildirib və qeyd edib ki, bunlardan 17 mini tələbələrdir: “İllinoys Universiteti tibb təhsili sahəsində ən məşhur elm ocaqlarından biridir. Elmi araşdırmalara ayrılan vəsait baxımından İllinoys Universiteti ABŞ üzrə ilk 50 yerə daxildir və 3 tibbi kollecin birləşdirilməsi ilə yaradılıb”.



İllinoys Universitetinin oftalmologiya fakültəsinin dekanı, professor Mark Rosenblatt da təmsil etdiyi elmi təhsil müəssisəsinin strukturu, fakültələrin fəaliyyəti, mövcud tədris prosesi və digər məsələlər haqqında geniş məlumat verib. O, ATU ilə tanışlığından məmnun olduğunu bildirərək buradakı şəraiti bəyəndiyini söyləyib.

İllinoys Universitetin neyrocərrahiyyə şöbəsinin professoru Konstantin Slavin isə vaxtilə Azərbaycan Tibb Universitetində təhsil almasından qürur duyduğunu deyib. O, ATU-dakı təhsil illərini xatırlayaraq, həmin dövrdən fəxrlə danışıb. Qeyd edib ki, həmin illər təhsil üçün indiki qədər yaxşı şərait yox idi. Və bu illər ərzində Azərbaycanın hər sahəsində olduğu kimi səhiyyə və tibb sahəsində də ciddi uğurlar əldə olunub.

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalov ali məktəbin dünyanın bir çox nüfuzlu universitetləri ilə əlaqələrindən söz açıb. Qonaqların ATU-nun Tədris-Cərrahiyyə Klinikası ilə tanış olduqları qeyd olunub.

ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov universitetdə aparılan elmi araşdırmalar barəsində amerikalı nümayəndələrə ətraflı məlumat verib.

Görüşün sonunda Azərbaycan Tibb Universiteti və Çikaqonun İllinoys Universiteti arasında qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi məqsədilə əməkdaşlıq sazişinin imzalanması məsələsi müzakirə olunub. Gələcəkdə universitetlər arasında qarşılıqlı tələbə, rezident və mütəxəssis mübadiləsinin gerçəkləşdirilməsi məsələləri barədə fikir mübadiləsi aparılıb. Həmçinin, tədris prosesinin strukturunda da İllinoys Universitetiinn zəngin təcrübəsindən yararlanmağın faydalı olacağı vurğulanıb.

# Konstantin Slavin kimdir?

**Konstantin Slavin 1969-cı il avqustun 20-də Bakıda doğulub. 1982-88-ci (13 yaşında universitetə qəbul olunub) illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda (indiki ATU) təhsil alıb və təhsilini fərqlənmə ilə başa vurub.**

1988-1992-ci illərdə Moskavada neyrocərrahiyyə üzrə rezidenturasını yekunlaşdırıb, 1994-1995-ci illərdə İllinoysda ümumi cərrahiyyə üzrə təcrübə keçmişdir.

1998-1999-cu illərdə Oreqon Səhiyyə və Elm Universitetinin Neyrocərrahi Əməliyyat Departamentində funksional və stereotaktik neyrocərrahiyyə proqramı təqaüdü çərçivəsində fəaliyyət göstərib. 1997-ci ildə yazılı, 2004-cü ildə şifahi olaraq Neyrocərrahiyyə üzrə ABNS imtahanlarını müvəffəqiyyətlə verib. 2013-cü ildə Neyrocərrahiyyə heyətinin ABNS attestasiyasını da keçməyə müvəffəq olub. 2004-cü ildən Amerika Neyrocərrahlar Birliyinin üzvüdür.



İndiyə kimi 17 təqaüd proqramı və mükafata layiq bilinib, 20-yə yaxın müxtəlif tibbi vəzifələrdə çalışıb, 5 araşdırma həyata keçirib, 12 müxtəlif liderlik tələb edən vəzifələrdə fəaliyyət göstərib, 15-ə yaxın milli və yerli cəmiyyətlərin, 18 müxtəlif redaktə heyətlərinin üzvüdür, 60-ya yaxın elmi mövzulu tezis və kitablara rəy verib, 4 kitabın müəllifi, 33 kitabın həmmüəllifi, 105 elmi məqalənin, 89 elmi şərhin, 125 tezisin müəllifidir. 58 müxtəlif oral və 6 elektron təqdimatda natiqlik edib. 127 müxtəlif mühazirələrə qonaq mühazirəçi kimi dəvət olunub.

# Hüseyn Qabulov: “Klinikamızın unikal imkanları var və biz bu imkanlardan geniş istifadə etməliyik”

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Tibbi Şuranın növbəti iclası keçirilib.**



İclası açan klinikanın direktoru, professor Hüseyn Qabulov gündəlikdəki məsələlərlə şura üzvlərini tanış edərək bildirib ki, əsasən cari ilin keçən ayı ərzində klinikanın fəaliyyəti haqqında və mövcud problemlərin həlli yollarının araşdırılması ilə bağlı müzakirələr aparılacaq.

H.Qabulov bildirib ki, noyabr ayı ərzində Klinikanın bütün şöbə və struktur bölmələrinin fəaliyyəti ilə tanış olub: “İlk olaraq onu qeyd etmək istəyirəm ki, 2011-ci ildən klinikada çox mühüm və lazımlı işlər görülüb. Buna görə Klinikanın bütün kollektivinə, o cümlədən klinikamıza rəhbərlik etmiş professor Surxay Musayeva təşəkkür edir, bir müddət öncə direktor vəzifəsində çalışan Könül xanımın da zəhmətini dəyərləndirirəm.



Hesab edirəm ki, görülən mühüm və lazımlı işlər davam etdirilməli və zamana uyğun təkmilləşdirilməlidir. Bu, bizim fəaliyyətimizin əsas prinsiplərindən biridir.

İkinci vacib və prioritet məsələ klinikamızın personalının səmərəli çalışması üçün mümkün şəraitin yaradılmasıdır. Bu istiqamətdə imkanımız daxilində işlər görürük. Digər vacib məsələ isə tələbə və rezidentlərə nəzəri biliklərlə yanaşı, praktik vərdişlər də tədris etməkdir. Bunun üçün də tələbə mümkün qədər daha çox xəstə görməlidir”.

“Digər tibb ocaqlarından fərqli olaraq klinikamızın unikal imkanları var və biz bu imkanlardan geniş istifadə etməliyik”, –deyən H.Qabulov klinikanın rəqabət imkanlarının genişləndirilməsi baxımından vacib sahələrdə görülən işlərin hazırki vəziyyətə uyğun qurulmasının məqsədəuyğun olduğunu da diqqətə çatdırıb.

Gündəlikdə olan birinci məsələ ilə bağlı direktorun müalicə işləri üzə müavini, dosent Adil Nuriyevin çıxışı dinlənilib.

O, klinikanın noyabr ayındakı müalicə–diaqnostik fəaliyyəti ilə bağlı hesabatı şura üzvlərinin diqqətinə çatdırıb.

Noyabr ayı ərzində klinikanın şöbələrində stasionar və gündüz rejimində müalicə alan pasiyentlər barədə ətraflı məlumat verən A.Nuriyev, oktyabr ayı ilə müqayisədə noyabrda xəstə sayının qəbulunda artım olduğunu söyləyib.

Pulmonologiya, Allerqologiya və Nefrologiya, Endokrinologiya, Qastroenterologiya, Angioqrafiya, Pediatriya şöbələrinin fəaliyyətini xüsusi qeyd edən A.Nuriyev, adı çəkilən şöbələrin daha çox xəstə qəbul etdiyini də diqqətə çatdırıb.

O, eyni zamanda 2015–ci ilin noyabr ayı ilə müqayisədə cari ilin noyabrında xəstə sayının qəbulunda artımın müşahidə olunduğunu da bildirib.

Daha sonra USM həkimi Mətanət Musayevanın Sonoelastoqrafiya müayinəsi ilə bağlı çıxışı dinlənilib.

Sonoelastoqrafiyanın üstünlükləri barədə danışan həkim bunun biopsiyaların sayını azaltmağa imkan verdiyini və bununla da pasiyentlərin stres səviyyəsini azaltdığını vurğulayıb.

Sonoelastoqrafiya müayinəsinin qaraciyərin sərtliyini ölçərək bu orqanın fibroz mərhələsini təxmin etdiyini və fibrozun erkən dövrdə müəyyən olunması baxımından əhəmiyyət daşıdığını da qeyd edib.

İclasda çıxış edən ATU–nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov Tomson Reyters veb of science–də həkimlərin və rezidentlərin tibbi biliklərinin təkmilləşdirilməsi baxımından burada ingilis, rus, türk dillərində yer alan elmi məqalələrin onların tibbi biliklərinin inkişafı baxımından zəruri olduğunu bildirib.

İclas cari məsələlərin müzakirəsi ilə işini yekunlaşdırıb.

**ATU-nun mətbuat xidməti**

◆ **İnsanların sağlamlığının qorunmasında əczaçıların da rolu böyükdür. Müalicə zamanı düzgün dərmanların təqdim olunması, xəstələrə düzgün məsləhətlərin verilməsi böyük önəm daşıyır. Qürurla qeyd etmək istəyirik ki, respublikamızın müalicə-profilaktika, aptek şəbəkələrində fəaliyyət göstərən əczaçı kadrların demək olar ki 98 faizi Azərbaycan Tibb Universitetinin əczaçılıq fakültəsinin məzunlarıdır.**



# Əczaçılıq fakültəsində 3 yeni müasir laboratoriya yaradılır



Fakültənin dekanı, professor Tahir Süleymanov bildirir ki, 1939-cu ildə ölkədə ilk dəfə olaraq, əczaçılıq institutu açılıb. 1941-ci ildə müharibədən sonra kadr çatışmamazlığı səbəbindən Azərbaycan Dövlət Əczaçılıq İnstitutu fakültə kimi ATU-nun daxilinə keçirilib. Elə fakültənin tarixi də həmin dövrdən başlayır.

**- Tibb Universitetində əczaçılıq fakültəsinin çəkisi hansı dərəcədədir?**

- Fakültəmizdə bu günədək yüksək ixtisaslı, ali təhsilli əczaçı mütəxəssislər hazırlanıb. Onlar ölkəmizin aptek şəbəkələrinə, müalicə-profilaktika tərkibində olan apteklərdə çalışırlar. Qeyd edim ki, fakültə tək Azərbaycan üçün yox, sovet ittifaqı dönəmində Türkmənistan, Ermənistan, Özbəkistan kimi müttəfiq ölkələrin əczaçı kadr hazırlığı ilə də məşğul olub.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra beynəlxalq əlaqələrimiz genişləndi və bizim fakültəyə digər ölkə vətəndaşları da təhsil almağa gəldilər. Bunlar arasında əsasən qonşu İran, Türkiyə və İraq vətəndaşları üstünlük təşkil edir. Müstəqillik dönəmində 250-dən artıq əcnəbi vətəndaş ATU-nun əczaçılıq fakültəsinin məzunu olub.

**- Fakültədə tədrisin təhsili haqqında nə demək olar?**

- Universitetimizdə olduğu kimi əczaçılıq fakültəsində də tədrisin təşkili Bolonya prinsipinə əsasən aparılır. Fakültəmizdə təhsilin istənilən pilləsində olan tələbələrimiz qarşılıqlı mübadilə proqramlarının üstünlüyündən faydalanırlar. Onlar arasında Türkiyədə, İspaniyada təhsil alanları üstünlük təşkil edir.

Bu arada qonaqlarımız da çox olur. Xüsusilə Türkiyə universitetlərindən mütəxəssislər dəvət edirik. Bununla yanaşı, Böyük Britaniyanın University School of London Universitetinin əczaçılıq fakültəsindən qonaqlarımız olub.

ATU-nun əczaçılıq fakültəsində 120 nəfər işləyir, 390 tələbəmiz var. Burada dərs deyən müəllimlərin 70 faizinin elmi dərəcəsi var.

**-Tahir müəllim,əczaçılığın tədrisində laboratoriyalar böyük önəm daşıyır. Tələbələrin praktikası üçün hansı növ labortariyalar fəlaiyyət göstərir?**

- Əczaçılıq fakültəsinin ixtisas kafedralarında, xüsusilə-əczaçılıq texnologiyası, farmokoqnoziya, əczaçılıq kimyası kafedralarında uzun illər respublikamızın təbii sərvətlərinin tədqiq edilməsi, yeni vasitələrin yaradılması istiqamətində ayrı-ayrı planlar əsasında elmi-tədqiqat işləri aparılıb. Lakin bu işlərin praktikada tətbiqi bugünki tələblərə cavab vermir. Belə hallarda tədqiqatçıları günahlandırmaq düzgün olmaz. Çünki bu sistemləşmiş, vahid bir klon əsasında aparılmalıdır. Təşkilati cəhətdən bu işlərə müəyyən istiqamət verilməlidir.

Bu baxımdan, dekan olaraq fəaliyyətə başladıqdan sonra qarşıda duran əsas problemlərdən biri də bu proseslərin vahid bir klon əsasında aparılmasının təşkili oldu. Bu məqsədlə fakültə əməkdaşlarından bir qrupu qrant layihəsinin alınması istiqamətində işlərə başladıq. Və 2014-cü ilin yekunlarına görə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən keçirilən qrant layihənin, qrant-pilot layihənin qalibi olduq.

Layihənin əsas məqsədi, respublikanın təbii sərvətləri əsasında yeni dərman vasitələrinin yaradılması üçün müasir əczaçılıq laboratoriyalarının yaradılması, dərman vasitələrini hazırlamaq üçün lazımi müasir avadanlıqların təchizi və onların çalışması üçün müasir şəraitin qurulmasından ibarətdir.

**-Yeni laboratoriyaların üstünlüyü nədən ibarət olacaq? Burada tələbələr hansı sahəyə uyğun tədqiqatlar apara biləcəklər?**

-Hələlik 3 istiqamətdə laboratoriyaların yaradılması nəzərdə tutulub: Fitokimyəvi laboratoriya, Əczaçılıq Kimyası laboratoriyası və Əczaçılıq Kimyası Standartlaşdırma laboratoriyası. Bu bölmələr ixtisasımıza uyğundur. Belə ki, təbii mənbələrdən bioloji fəal maddələr alınması, fitokimyəvi laboratoriyada həyata keçiriləcək.

Fitokimyəvi laboratoriyada bu mənbələrdən bioloji fəal maddələr almaq üçün şöbəyə müxtəlif vakum buxarlandırıcı, reafilizator, xromotoqrof kimi avadanlıqlar alınıb.

İkinci şöbə-Əczaçılıq Texnologiyası laboratoriyası şöbəsidir. Burda ilkin mənbələrdən alınmış bioloji fəal maddələrin müxtəlif dərman formalarına salınması nəzərdə tutulub. Bu dərman formalarının həyata keçirmək üçün laboratoriyaya tabletpres, kapsulyator, nanoemosiya aparatı və digər köməkçi avadanlıqlar alınıb. Alınmış və müxtəlif dərman formalarına salınmış bioloji fəal maddələrin keyfiyyətinə nəzarət üsulunun yaradılmasını əczaçılıq kimyası standartlaşdırma şöbəsi həyata keçirəcək. Bu şöbədə də əczaçılıq analizləri aparmaq üçün bütün növ yeni avadanlıqlar alınıb, quraşdırılıb. Məsələn: yüksək keyfiyyətli maye xromatoqrafı, masspektrlər, qaz xromotoqrafları, pliametr kimi cihazlar alınıb.

Qeyd edim ki, qrant layihəsinin müddəti 2 ildir və 2017-ci ilin fevralında başa çatacaq. Hazırda işlərin 95 faizi yerinə yetirilib. Laboratoriyalarda avadanlıqların qurulması üçün universitet tərəfindən otaqların təmiri, su-elektirk-kanalizasiya xətlərinin yenilənməsi, avadanlıqların gətirilməsi, avadanlıqlara uyğun stol-stulun alınması, avadanlıqların quraşdırılması, avadanlıqlara iş üzrə treyninqlərin təşkili kimi işlər yerinə yetirilib. Bu laboratoriyalardan artıq tələbələrimiz və müəllimlərimiz dərslər üçün, mütəxəssislər isə elmi işləri üçün rahat istifadə edə bilirlər.

**Günel ASLANOVA**

*Yubiley*

**Bu günlərdə ATU-nun bədən tərbiyəsi və idman kafedrasının müdiri, respublikanın əməkdar bədən tərbiyəsi və idman xadimi, Prezident təqaüdçüsü, professor Kamal Əkbər oğlu Kəbirlinskinin anadan olmasının 80 illiyi tamam olur.**



# Tanınmış idman xadimi

Kamal Kəbirlinski 24 dekabr 1936-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, 1955-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi institutuna daxil olmuş və 1959-ci ildə oranı bitirmişdir.

K.Kəbirlinski əmək fəaliyyətinə 1959-cu ildən Azərbaycan Tibb Universitetinin bədən tərbiyəsi və idman kafedrasında başlamışdır.

1964-cü ildə Moskva şəhərində Mərkəzi Dövlət İdman İnstitutu fiziologiya kafedrasının nəzdində təşkil olunmuş məqsədli aspiranturaya qəbul olmuş, 1968-ci ildə SSRİ məkanında həndbol idmanı üzrə birinci olaraq dissertasiya müdafiə edərək pedaqoji elmləri namizədi adını almışdır. Bu məqsədlə icad etdiyi aparat-trenajor həndbolçular tərəfindən indi də məşq prosesində müvəffəqiyyətlə istifadə olunur.

K.Kəbirlinski 1969-cu ildə ATU-nun bədən tərbiyəsi və idman kafedrasına müdir seçilmiş və bu günə kimi həmin vəzifədə çalışır. Onun rəhbərliyi altında Azərbaycan Tibb Universiteti respublikanın ali təhsil məktəbləri arasında idmanın ayrı-ayrı növləri üzrə keçirilən yarışlarda yüksək nəticələr əldə etmişdir. Təsadüfi deyil ki, komandamız "Gənclik" Tələbə İdman Cəmiyyəti tərəfindən 1993-2015-ci illər ərzində keçirilmiş Respublika Universiadalarının ardıcıl olaraq 12 dəfə qalibi olmuşdur. Bu qələbələrin əldə olunmasında K.Kəbirlinskinin böyük xidmətləri danılmazdır.

K.Kəbirlinskinin tələbə gənclərin bədən tərbiyəsi və idmana cəlb edilmsində gördüyü işlərlə yanaşı, respublikamızda həndbol idman növünün inkişaf etdirilməsində, eləcə də, elmi-pedaqoji sahədə xidmətləri də böyükdür.

K.Kəbirlinski 1971-ci ildə dosent, 1994-cü ildə isə professor adına layiq görülmüşdür və 68-dən çox elmi məqalənin müəllifidir.

K. Kəbirlinski hələ gənc yaşlarında, 1959-cu ildə Respublikanın qadınlardan ibarət həndbol komandasının məşqçisi təyin olunmuş və 1969-cu ildən 1989-cu ilə qədər Azərbaycan Həndbol Federasiyasının Prezidenti vəzifəsində çalışmışdır. Onun rəhbərliyi altında bu komanda SSRİ Çempionatlarında 18 dəfə gümüş və bürünc medal, yığma komandalar səviyyəsində isə SSRİ Xalqlarının Spartakiadasında 2 gümüş və 1 bürünc medal qazanmışlar. 1983-cü ildə isə "Avtomobilçi" komandası Avropa Beynəlxalq Həndbol Federasiyasının kubokuna sahib olmuşdur.

Onun rəhbərlik etdiyi həndbol idmanı üzrə elmi-tədqiqat kompleks qrupu həndbolçu qızların oyun fəaliyyətini hərtərəfli təhlil etmiş və məşq prosesini təkmilləşdirmək üçün faydalı məsləhətlər vermişdir. Məşqçilərlə sıx elmi-metodiki əlaqələr nəticəsində görkəmli həndbolçular hazırlamışdır. Həmin həndbolçulardan R.Şabanova - əməkdar idman ustası, XIX Olimpiya oyunlarının çempionu, L.Şubina - əməkdar idman ustası, XIX Olimpiya oyunlarının çempionu, L.Safkina - əməkdar idman ustası, XX Olimpiya oyunlarının çempionu, o cümlədən əməkdar idman ustası, 1980-ci ildə Moskvada keçirilən "Xoş məramlı oyunlar"ın çempionu E.Vahabzadənin adlarını iftixarla çəkə bilərik.

1980-cı ildə Moskva şəhərində keçirilən XX Olimpiya Oyunlarında uğurlu işinə görə BOK-un Fəxri diplomuna layiq görülmüşdür.

K.Kəbirlinski Respublikada bədən tərbiyəsi və idmanın inkişafında göstərdiyi xidmətlərə görə "Azərbaycan Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi" adına layiq görülmüş, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin fəxri fərmanı ilə təltif olunmuş və Azərbaycan Respublikasının Prezidentinin xüsusi fərmanı ilə "Tərəqqi" medalını almışdır.

1969-cu ildən bu günə qədər ATU-da işlədiyi dövrün 48-ci ilidir ki, bədən tərbiyəsi və idman kafedrasına rəhbərlik edir.

2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə K.Kəbirlinskiyə Prezident təqaüdü verilmişdir.

Ömrünün müdriklik çağını yaşayan, universitetimizin idman şərəfini daim zirvələrə qaldıran tanınmış idman ustası, hörmətli Kamal müəllimi bu şanlı yubileyi münasibəti ilə təbrik edir, ona bundan sonra da yorulmaz fəaliyyət arzulayırıq.

**Bədən tərbiyəsi və idman kafedrasının əməkdaşları**

Mütəxəssis sözü

# Baş epidemioloq: Son illər ölkəmiz üçün xarakterik olmayan heç bir yoluxucu xəstəlik qeydə alınmayıb

**"Səhiyyə Nazirliyi yoluxucu xəstəliklərlə mübarizə işini daim nəzarətdə saxlayır, fəaliyyətində profilaktik və əksepidemik tədbirlərin təkmilləşdirilməsinə diqqəti mütəmadi artırır. Bütün beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində yoluxucu xəstəliklərlə mübarizə işində əhəmiyyətli nəticələr əldə edilib, spesifik profilaktika vasitələri ilə idarə olunan infeksiyalar üzərində nəzərəçarpan nailiyyətlər qazanılıb. Bir çox ölkələrdə və regionlarda gərginliyə baxmayaraq, aparılan tədbirlər sayəsində ölkəmizdə epidemioloji vəziyyət stabildir".**

Bu sözləri Səhiyyə Nazirliyinin baş epidemioloqu İbadulla Ağayev deyib.

Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlərdən danışan İ.Ağayev bildirib ki, bununla bağlı səhiyyə naziri tərəfindən 2016-cı il 6 oktyabr tarixində əmr imzalanıb. Hazırda payız-qış mövsümü olduğu üçün qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əksepidemik tədbirlərin, həmçinin infeksiya üzərində epidemioloji monitorinqin gücləndirilməsi məqsədilə bütün tibb müəssisələrinə göstəriş verilib.



Baş epidemioloq vurğulayıb ki, son illər ölkəmiz üçün xarakterik olmayan heç bir yoluxucu xəstəlik qeydə alınmayıb.

Mövsüm dəyişikliyi ilə əlaqədar qripin daha da yayılmasına gəlincə, İ.Ağayev qeyd edib ki, havaların soyuması ilə əlaqədar əhalinin tənəffüs yolu xəstəlikləri, o cümlədən qriplə xəstələnməsi bir qayda olaraq artır. "Odur ki, hər bir şəxs özünü və ailə üzvlərini, xüsusilə uşaqları bu xəstəliklərdən qorumalıdır. Yoluxucu xəstəliklərin digər xəstəliklərdən fərqi ondadır ki, bunları proqnozlaşdırmaq çətindir. Ona görə də, insanlar öz sağlamlıqlarına ciddi yanaşmalıdırlar".

Onun sözlərinə görə, Səhiyyə Nazirliyinin bütün müəssisələrində hər hansı yoluxucu xəstəliklə mübarizə aparmaq üçün lazım olan dərman preparatları ehtiyatı vardır. Qrip və kəskin respirator virus xəstəliklərinin qarşısının alınması üçün nazirlik tərəfindən tibb müəssisələrində qabaqlayıcı tədbirlər planı işlənilib hazırlanıb. "2016-cı ildə Avropa regionunun əksər ölkələrində və bizimlə həmsərhəd ölkələrdə ağır gedişi, yüksək ölüm faizi olan H1N1 qripi epidemiyası aparılan profilaktik tədbirlər nəticəsində Azərbaycanda qeydə alınmayıb. Mövsüm dəyişikliyi ilə əlaqədar qripin hər hansı bir ölkədə artacağını proqnozlaşdırmaq mümkün deyil. Əgər xəstələnənlərin sayı artarsa, buna qarşı mübarizə aparmaq iqtidarındayıq", - deyə baş epidemioloq bildirib.

# Dünya Səhiyyə Təşkilatı Azərbaycanın malyariya, qızılca və məxmərəklə mübarizədə uğurlarını yüksək qiymətləndirir

**Qızılca və məxmərəyin eliminasiyasının verifikasiyası üzrə Avropa Regional Komissiyası təsdiq edir ki, Azərbaycan 2012-ci ilin yanvar ayından 2014-cü ilin dekabr ayınadək qızılcanın rəsmi sənədlə təsdiqlənmiş eliminasiyasına nail olub. Bu fakt bütün Avropa regionunda qızılca və məxmərəyin eliminasiyasına çatmaq üçün əhəmiyyətli töhfədir.**



AZƏRTAC xəbər verir ki, bu, Azərbaycanın Səhiyyə Nazirliyinə qızılca və məxmərəyin eliminasiyasının verifikasiyası üzrə Avropa Regional Komissiyasından daxil olan sənəddə əks olunub. Komissiyanın digər sənədi isə həmin dövrdə Azərbaycanda məxmərəyin eliminasiyasına nail olunduğunu rəsmən təsdiqləyir.

Hər iki sənədi qızılca və məxmərəyin eliminasiyasının verifikasiyası üzrə Avropa Regional Komissiyasının sədri Günter Pfaf imzalayıb. Bu komissiya Dünya Səhiyyə Təşkilatının (DST) Avropa regional bürosu tərəfindən yaradılıb.

Qeyd edək ki, Səhiyyə Nazirliyinə DST-nin Avropa regional bürosunun direktoru xanım Jujanna Yakabın imzası ilə minnətdarlıq məktubu da daxil olub. Məktubda deyilir: "Malyariyadan azad Avropaya doğru yolda mühüm fəaliyyətinizin təsdiqi nişanəsi olaraq 2016-cı il aprelin 20-də DST-nin Avropa regional bürosu Avropa ərazisində malyariyanın yerli ötürülməsində fasiləyə nail olunduğunu bəyan etdi. Beləliklə, Avropa dünyada malyariyadan azad ilk region oldu. Bu nailiyyəti mümkün edən möhkəm siyasi tərəfdaşlığınıza, yüksək sayıqlığınıza və sərf etdiyiniz resurslara görə sizə DST adından minnətdarlığımı bildirmək istərdim".

# Peyvənddən sonra fəsadların qarşısını almaq üçün faydalı məsləhətlər

Son zamanlar bəzi valideynlər uşaqlara peyvəndlərin vurulmasından imtina edir. Bu, çox təhlükəli haldır. Bununla valideyn tək öz uşağını deyil, digər uşaqları da təhlükə altına salır.



Səbəb kimi valideynlər peyvənddən sonra "reaksiya"lardan qorxduğunu göstərirlər.

Lakin statistika göstərir ki, 99,9% hallarda peyvənddən sonra mümkün olan fəsadların səbəbi peyvənd yox, uşaq orqanizminin xüsusiyyətləri və bir çox hallarda uşağa düzgün olmayan baxımdır.

Peyvəndlərdən sonra mümkün olan fəsadları minimuma çatdırmaq üçün bir neçə sadə qaydaya əməl etmək lazımdır:

1. İlk növbədə peyvənd yalnız tam sağlam uşaq oluna bilər. Əgər uşaq vaksinasiyaya yaxın 1 ay ərzində heç bir ciddi xəstəlik keçirməyibsə, vaksinasiya günü uşaqda hər hansı xəstəlik, zökəm, öskürək, səpgilər, hərarət, ishal, qəbizlik yoxdursa, uşaq peyvənd oluna bilər. Lakin hər halda peyvənddən əvvəl uşaq mütləq həkim tərəfindən müayinə olunmalıdır.

Soyuqdəymə, qrip, digər infeksion xəstəliklikdən sonra 1 ay gözləmək lazımdır. Daha tez vurulan peyvənd müxtəlif ağırlaşmaların inkişafına səbəb ola bilər.

2. Peyvənddən 1 gün əvvəl, peyvənd günü və peyvənddən 1 gün sonra uşağı həddindən artıq yedizdirməyin. Bağırsaq nə qədər az yüklənərsə, o qədər yaxşıdır. Uşağa kifayət qədər maye verin.

Peyvənddən 1 gün əvvəl, peyvənd günü və bir neçə gün sonra (1 həftəyə qədər) uşağa yüksək allergiya xüsusiyyətlərinə malik olan qida məhsulları (yumurta, balıq, sitrus meyvələri, qoz-fındıq, şokolad, konservləşdirilmiş məhsullar, yağlı bulyonlar və s.) verməк olmaz.

Körpə uşaqların qidalanmasına peyvənddən 1 gün əvvəl, peyvənd günü və peyvənddən təxminən 1 həftə sonra yeni qidaları daxil etmək olmaz.

3. Peyvənd olunduqdan sonra uşağı soyuqdəymədən, infeksiyalardan qorumaq, bir müddət digər uşaqlar və böyüklərlə ünsiyyətini məhdudlaşdırmaq lazımdır. Bu məqsədlə uşağı dükana, uşaq baxçasına, teatra və s. yerlərə aparmayın.

4. Bütün peyvəndlər üçün müəyyən əks-göstərişlər mövcuddur: əvvəlki peyvəndə qarşı güclü reaksiya və ya postvaksinal fəsadlar, ilkin immunodefisitlər, onkoloji, autoimmun, proqressivləşən sinir sistemi xəstəlikləri, allergik xəstəliklər. Bunu mütləq nəzərə almaq lazımdır.

5. Valideynlər həkimdən peyvənddən sonra uşaqda baş verə biləcək fəsadlar haqqında ətraflı məlumat almalı və lazım olduqda dərhal həkimə müraciət etməlidir.

Xalq təbabəti

# Jenşenin inanılmaz sayda faydalı xüsusiyyətləri

**Bu bitki qədim Çin təbabətində çox geniş istifadə olunurdu.**



Qədimdə bu bitki "ölümdən başqa bütün xəstəliklərin dərmanı" sayılır və həqiqətən də çox yaxşı kömək edirdi. Jenşen cavanlığı qoruyan, insanın ömrünü uzadan vasitə sayılırdı. Jenşenin köməyi ilə bir çox xəstəlikləri müalicə edirdilər – impotensiya, yuxusuzluq, ürək xəstəlikləri, müxtəlif yaralar və xoralar və s.

Hal-hazırda jenşenin faydalı xüsusiyyətləri ənənəvi tibdə təsdiq olunub. Bu bitki bir çox dərman preparatların tərkibinə daxil edilir.

Müalicə zamanı əsasən jenşenin kökündən istifadə olunur. Jenşen kökünün çox maraqlı forması var – kök insana bənzəyir.

– Jenşen ümumi möhkəmləndirici təsirə malikdir. Bu səbəbdən bitki immuniteti möhkəmləndirən bir çox preparatların tərkibinə daxildir. Jenşen orqanizmin müxtəlif infeksiyalara qarşı davamlılığını artırır, sağalmanı tezləşdirir.

– Bitki insanın mərkəzi sinir sisteminə çox müsbət təsir edir – yaddaşı möhkəmləndirir, yuxusuzluqdan və depresiyalardan azad edir, stresi azalıdr, nevrasteniya zamanı kömək edir.

– Jenşen təbii tonuslaşdırıcı vasitədir – insanı daha gümrah və fəal edir, əqli yorğunluğunu azaldır, iş qabiliyyətini yaxşılaşdırır.

– Jenşen ürək-damar sisteminə olduqca müsbət təsir edir, ürək-damar sistemi xəstəliklərinin inkişafının qarşısını almağa kömək edir – ürəyin əzələsini qoruyur, arterial təzyiqi tənzimləyir, qanda xolesterinin səviyyəsini aşağı salır, damarlarda trombların əmələ gəlməsinin qarşısını alır.

– Jenşen qanda şəkərin səviyyəsini aşağı salır.

– Kişilər üçün jenşen xüsusilə xeyirlidir. Jenşen cinsi zəifliyi aradan qaldırmağa kömək edir, cinsi funksiyanı və spermoqrammanın nəticələrini yaxşılaşdırır. Məhz bu səbəbdən jenşen kişi sonsuzluğu, spermatogenezin (spermanın "istehsalı") müxtəlif pozulmaları, impotensiya zamanı tez-tez istifadə olunur.

– Jenşen qadınlarda menstrual funksiyanın yaxşılaşmasına kömək edir.

– Jenşen mübadilə prosesləri yaxşılaşdırır, piylərin parçalanmasını sürətləndirir. Bu səbəbdən jenşen arıqlamaq üçün olan müxtəlif preparatların tərkibinə daxil edilir.

– Jenşen kökünün və yarpaqların dəmləməsi sağalmayan yaraların və xoraların müalicəsində istifadə olunur.

– Jenşen dərinin vəziyyətinə çox müsbət təsir edir – dəridə mübadilə prosesləri və qan dövranını yaxşılaşdırır, hüceyrələrin yenilənməsini sürətləndirir, dərini daha dartılmış və elastik edir.

Jenşen müalicəvi vasitədir. Bu səbəbdən tərkibində jenşen olan preparatları yalnız həkim təyin etməlidir.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların müdirləri:**

- II daxili xəstəliklər kafedrası
- İnsan anatomiyası kafedrası
- Travmatologiya və ortopediya kafedrası
- Patoloji fiziologiya kafedrası
- Əmək gigiyenası və uşaq- yeniyetmələr gigiyenası kafedrası
- Biofiziki və bioüzvi kimya kafedrası
- Ortopedik stomatologiya kafedrası

**Kafedranın dosenti:**

- Epidemiologiya kafedrası - 1 yer

**Kafedraların assistentləri:**

- III daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer
- Urologiya kafedrası -1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti, 16 dekabr 2016-cı il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**Bakı şəhəri - Az 1007, Ənvər Qasımzadə, 14:**

**Telefon: (012) 597-43-23**

## Yeni il bayramı ilə əlaqədar qeyri iş günləri açıqlandı

Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik günü ilə əlaqədar ölkədə 5 gün iş olmayacaq.

2016-ci ilin dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəylik günü ilə əlaqədar qeyri-iş günüdür. 2017-ci ilin yanvarın 1 və 2-si də Yeni il bayramı ilə əlaqədar qeyri-iş günləri olacaq.

Əmək Məcəlləsinə əsasən, dekabrın 31-i həftənin şənbə, yanvarın 1-i isə bazar gününə təsadüf etdiyindən yanvarın 3-ü və 4-ü də iş olmayacaq. Yanvarın 5-i isə iş günü hesab olunur.

### Allah rəhmət eləsin!

Hərbi səfərbərlik, xüsusi, kadrlar şöbələrinin və mülki müdafiə qərargahının əməkdaşları hərbi səfərbərlik şöbəsinin müdiri Əlisa Kamalbəyova qardaşı

**Elman Kamalbəyovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları iş yoldaşları Qızbəs Şahımovaya əmisi

**Şirin Şahımovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

### Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin VI kurs, 338[b] qrup tələbəsi Əkbərli Tutu Bəhram qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, 104[a] qrup tələbəsi Məmmədzadə Məryəm Muxtar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, 104[a] qrup tələbəsi Qədirli Elman Mehman oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin hazırlıq şöbəsinin dinləyicisi Burak Dariyerinin adına verilmiş dinləyici bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin I kurs, 1125[b] qrup tələbəsi Məcidli Cabir Rəşad oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Komandamız finala vəsiqə qazanmışdır

**Dekabrın 9-da Əczaçılıq fakültəsinin Tələbə Gənclər Təşkilatı və Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə "Xəmsə MİO" oyunu keçirilib.**



Oyun başlamazdan öncə fakültənin dekanı, professor Tahir Süleymanov intellektual oyunların keçirilməsinin əhəmiyyətindən danışaraq qeyd edib ki, bu cür oyunlar perspektivli mütəxəssislərin hazırlanmasında müsbət rola malikdir.

Ümumilikdə yarışa qoşulan 8 komandadan "36.6", "Nevroz" , "Expandables" və "Albatros" komandaları "A" qrupunda, "Morfin", "Histamin", "Rezonans", "Şah və Mat" komandaları isə "B" qrupunda mubarizəyə başlamışdır. "Nevroz" və "Expendables" komandası "A" qrupundan, "Morfin" və "Histamin" komandası isə "B" qrupunda daha çox xal toplayaraq finala vəsiqə qazanmışdır. Final mərhələsində daha çox xal toplayan "Nevroz" komandası qalib olmuşdur. Qalib olan komanda pul mükafatına və diploma layiq görülmüşdür. Yarış, eləcə də fakültə haqqında digər məlumatları fakültənin rəsmi facebook ünvanı olan "ATU Eczaciliq" səhifəsində tanış ola bilərsiz.

## Antidepressantlar insult yaradır

**Mütəmadi olaraq antidepressant qəbul edən qadınlar insultdan daha çox əziyyət çəkirlər.**

AZƏRTAC xəbər verir ki, bu barədə Amerika Ürək Assosiasiyasının saytında dərc olunmuş tədqiqatdaməlumat verilib.



Mütəxəssislər ağır ürək-damar xəstəliklərindən əziyyət çəkən və depressiya yaşayan qadınlarda insult riskinin 32 faiz yüksək olduğunu bildiriblər.

Tədqiqatda qeyd olunur ki, depressiyanın ağır formaları ürək-damar sisteminin fəaliyyətinə pis təsir edir. Bu pozğunluq isə insultu, eləcə də xroniki xəstəlikləri gücləndirə bilər.

Məqalə müəllifləri öz həmkarlarına depressiyadan əziyyət çəkən xəstələrin ürək-damar sisteminin vəziyyətinə xüsusi diqqət yetirməyi məsləhət görürlər.

ABŞ alimləri belə qənaətə gəliblər ki, miqrenlərdən əziyyət çəkən qadınlarda da insult riski xeyli yüksəkdir.

### Tibb aləmində

## Antibiotiklərin təsirinə dayanıqlı olan bakteriyalar tapılıb

**Kanadanın Makmaster və Akron Universitetinin alimləri Meksikanın dərin mağaralarında antibiotiklərin təsirinə dayanıqlı olan nadir bakteriyalar tapıblar. Məlum olub ki, bu mikroorqanizmlərin təqribən 4 milyon il yaşı var.**



AZƏRTAC "vistanews.ru" saytına istinadla xəbər verir ki, mağaraya tarixi obyekt kimi UNESCO-nun təbii irsi statusu verilib. Amma bu mağaraların içində daim çoxalan viruslar üzündən 20 il əvvəl onlara giriş qadağan edilib. Sən demə, bu mağaralarda mikroblar özünəməxsus ssenariyə uyğun yaşayır və çoxalır. Bu mikroblar ətraf mühitin təsirinə düşmür. Tədqiqatçılar genomu öyrənən biokimyəvi analiz və texnologiyalar vasitəsilə bakteriyaların ştammlarını tədqiq ediblər. Eləcə mikroorqanizmlərin daxili strukturunu görə biliblər.

Sonra alimlər müasir antibiotikləri bakteriyalar üzərində sınaqdan keçiriblər. Bakteriyalar 18 növ müasir preparata qarşı dayanıqlı olub. Alimlər bunu mikrobların strukturundakı mutasiyaların heç bir antibiotikin olmadığı 4 min il əvvəl formalaşması ilə izah ediblər.

## Duzlu suyun möcüzəsi

Xüsusilə qışda meydana gələn boğaz quruluğu müalicəsində, limonlu çay, bitki çayları kimi üsullar istifadə edilir. Ancaq duzlu su ilə qarqaranın təsiri hamıya məlum deyil.



Qışda quru havalarda və davamlı kondisionerli mühitdə olan insanlarda boğaz quruluğuna tez-tez rast gəlindiyini deyən mütəxəssislər bir çox halda cökə, səhləb, limonlu çay kimi isti mayelər və qarqara ilə birlikdə yaxşılaşma təmin olunduğunu söyləyirlər.

Boğaz quruluğunun bundan əlavə, allergiyalara, siqarətə, kifayət qədər su içməməyə, tənəffüs yolu infeksiyalarına bağlı olaraq inkişaf edir. Bir həftədən artıq davam edən hallarda həkim nəzarətinin şərt olduğu bildirilib.

Qarqara isə, boğazda qan axınını nizamlayır, bakteriya və viruslarla mübarizə aparır və sağalma prosesini sürətləndirir.

Bu səbəbdən də duzlu su ilə qarqara əla seçimdir. Lakin qarqara suyunu udmaq olmaz.

Bundan əlavə, bir stəkan su ilə qarışdırılacaq bir limon suyu və bir qaşıq bal da boğazınızı sakitləşdirəcək.

## Spirtli içki içmək gənclərin beynini dəyişdirir

**Şərqi Finlandiya Universitetinin alimləri bildirirlər ki, çoxlu spirtli içki içən yeniyetmələr baş beynin yaddaşa, emosiyalara, qərarların qəbul edilməsinə və özünənəzarətə cavabdeh olan mühüm strukturunun - boz maddənin çatışmazlığından əziyyət çəkirlər.**



Üstəlik, genetik amillər səbəbindən beynində boz maddə qıtlığı olan cavanlar spirtli içkilərə daha meyilli olurlar.

Mütəxəssislər tədqiqat zamanı 60-dan çox gənci müayinə ediblər. Tədqiqatda iştirak edən yeniyetmələr nə qədər və hansı tezliklə spirtli içki içmələri barədə anket doldurublar. 35 yeniyetmə spirtli içki düşkünü kateqoriyasına aid edilib. Nəticələr göstərib ki, baş beynin müəyyən nahiyələrində boz maddənin miqdarı az olan yeniyetmələr spirtli içkilərə daha çox qurşanırlar.

Müəyyən edilib ki, spirtli içkiləri çox içmək sosial təcrid, psixi sağlamlıq problemləri və təhsil səviyyəsinin aşağı olması ilə də bağlıdır. Bu cür yeniyetmələrin həyəcanlılıq səviyyəsi yüksək olur, onlar çoxlu siqaret çəkir və narkotik vasitələrdən istifadə edirlər.

Mütəxəssislər bildirirlər ki, baş beyin neyronlarının çox hissəsi boz maddənin tərkibindədir. Buna görə də onun miqdarının azalması psixi sağlamlığı pozur. Spirtli içkidən vaxtında imtina etmək sayəsində boz maddənin miqdarı arta bilər.

Baş redaktor ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98[c]
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 364